HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 noyabr 2015-ci il

№0011 (11)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | "იენი იოლი" საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## BÖYÜK İYRİMİLİYİN ANTALYA SAMMİTİ BAŞLADI




Noyabrın 15-də Türkiyənin Antalya şəhərində G20-nin (Böyük İyirmilik) zirvə toplantısı başlayıb.

Sammitdə 12 dövlət başçısı, 11 baş nazir və 2 Avropa Birliyinin lideri iştirak edir. Tədbirə 500-ə yaxın iş adamı daxil olmaqla, ümumilikdə 13 min nəfərin qatılacağı bildirilir.

Toplantı ilə bağlı Antalyanın Belek bölgəsi "təhlükəsiz ərazi" elan edilib. Dünya liderlərinin təhlükəsizliyini 11 mini polis olmaqla, 12 min nəfərlik heyət qoruyur.

Sammitdə ABŞ prezidenti Barak Obama, Səudiyyə Ərəbistanı Kralı Salman bin Abdulaziz, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya prezidenti Vladimir Putin iştirak edir.

Liderlərin dünyadakı iqtisadi və siyasi hadisələri müzakirə edəcəyi nəzərdə tutulur.

G20 sammitində Azərbaycanı prezident İlham Əliyev təmsil edir.

Sammit noyabrın 16-da öz işini davam etdirəcək.


GÜNDƏMİN İRƏLİ ÇIXAN XƏBƏRLƏRİNƏ BİR BAXIŞ 2

HÖKUMƏT PREZİDENTİ MƏCBURİ QAYDADA İQAMƏTGAHINDAN ÇIXARACAQMI? 3

ÖLKƏMİZİN QAZ BAZARINDAKI QIZĞINLIĞIN SİRRİ 4

İNSAN HƏYATININ DƏYƏRİ 5

FRANSA OLAYLARI VƏ İSLAM 6

YADPLANETLİLƏR – MÜƏMMALAR VƏ SİRLƏR 7

GÜRCÜSTANIN İNTELLEKTUALLAR KOMANDASI DÜNYANIN 12 GÜCLÜ KOMANDASINDAN BİRİ OLUB 8


## AZƏRBAYCAN PREZİDENTİ GÜRCÜSTANDA RƏSMİ SƏFƏRDƏ OLUB



Noyabrın 5-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Gürcüstana ikigünlük rəsmi səfər etmişdir.

Səfəri çərçivəsində prezident İlham Əliyevin Gürcüstan prezidenti Qeorqi Marqvelaşvili ilə görüşü olub.

Prezidentlərin görüşündə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi haqqında bəyannamə imzalanmışdır.

Azərbaycan prezidenti İlham Əliyevin Gürcüstanın baş naziri İrakli Qaribaşvili, Gürcüstan parlamentinin sədri David Usupaşvili və Gürcüstan parlamentinin deputatları ilə, eləcə də Gürcüstan Pravoslav Kilsəsinin Katalikos-Patriarxı II İliya ilədə görüşü olmuşdur.

Səfər çərçivəsində Azərbaycan prezidenti İlham Əliyev və Gürcüstan prezidenti Qeorqi Marqvelaşvili Marneuliyə getmişlər və buradakı "Çay evi" tədris mərkəzi ilə tanış olmuşlar.

"Çay evi" ilə tanışlıqdan sonra dövlət başçıları Gürcüstanın azərbaycanlı icmasının nümayəndələri ilə görüşüblər.

Görüşdə prezidentlərin çıxışı olub. Sonra Gürcüstan parlamentinin deputatı Mahir Dərziyev, Marneuli Azərbaycanlıların Mədəniyyət Mərkəzinin rəhbəri Fazil Həsənov, biznesmen İsfəndiyar Məmmədov və sahibkar Heydər Musayev çıxış etmişlər.

Prezident İlham Əliyev Gürcüstanın keçmiş baş naziri Bidzina İvanişvili ilə də görüşmüşdür.

Qeyd edək ki, Azərbaycan prezidenti İlham Əliyev Tbilisidə Gürcüstanın mərhum dövlət başçısı Eduard Şevardnadzenin məzarını ziyarət etmiş və onun ailə üzvləri ilə də görüş görüşmüşdür.

Noyabrın 6-da Azərbaycan prezidenti İlham Əliyevin Gürcüstana rəsmi səfəri başa çatmışdır.

## TBİLİSİ AVROPANIN CAZİBƏDAR VƏ AZ TANINAN ŞƏHƏRLƏRİ REYTİNQİNDƏ ONLUĞA DÜŞÜB



Böyük Britaniyanın The Daily Telegraph nəşri bu il turistlərin üstünlük verdiyi Avropanın ən cazibədar, lakin az tanınan şəhərlərinin reytinqini açıqlayıb.

Reytinqin birinci pilləsində İtaliyanın Berqamo şəhəri qərarlaşıb. The Daily Telegraf qeyd edib ki, turistlər İtaliya göllərinin, Lombardiyanın gözəlliyinə çətin laqeyd qala bilərlər.

İkinci pillədə İspaniyanın Vitoriya-Qasteys şəhəri yerləşir. Tərtibçilərin fikirinə görə, burada ölkənin ruhunu tam tam mənası ilə hiss etmək mümkündür. İlk üçlüyü Portuqaliyanın Alqavre əyalətindəki Tavira şəhəri tamamlayır.

Avropanın cazibədar, lakin az tanınan 10 şəhərini nəşr aşağıdakı kimi sıralamışdır:

Barqemo (İtaliya), Vitoriya-Qasteys (İspaniya), Tavira (Portuqaliya), Osiek (Xorvatiya), Skopye (Makedoniya), Umeyo (İsveç), Trevizo (İtaliya), Tbilisi (Gürcüstan), Nant (Fransa), Breqenets (Avstriya).



Afiq MUXTAROĞLU
*amuxtaroglu@mail.ru*

## *GÜNDƏMİN İRƏLİ ÇIXAN XƏBƏRLƏRİNƏ BİR BAXIŞ*

**Əvvəl məscidin içi, sonra dışarısı söyləyiblər. O üzdən də ilk öncə evimizin içində – ölkəmizdə baş verən hadisələrdən danışmamız yerinə düşər. Nədən ki, atalar ev bizim, sirr bizim dediklərindən, biz də elə buradan yola çıxmağı qərarlaşdırdıq. Ölkə gündəmindən seçib qulluğunuza ərz etmək istədiyimiz məsələ yenə də "Rustavi-2" televiziyası ilə bağlı olanlardır. Bu teleşirkətlə ilgili baş verənlər Gürcüstanı hər mənada sınağa çəkməkdədir. Bu gün "Rustavi-2" üzərindən oynanılan oyunlar göz qabağındadır. Cəmiyyətin əsəblərinin tarıma çəkildiyi bir dönəmdə bu məsələnin uzun müddət çözülməməsi insanımızı qayğılandırmaya bilməz. Bu məsələ çözülmədikcə ölkədə mövcud olan kövrək demokratik təsisatların taleyinin necəliyi də bəlli olmayacaq, cəmiyyəti gərginlik içərisində saxlayan bir vasitəyə dönəcək. "Rustavi-2" ilə bağlı məsələnin ölkənin siyasi gündəmində qalması Gürcüstan demokratiyasının varlığından, üstəgəl onun gərgin bir sınaq dönəmindən keçməyə məcbur olmasından xəbər verir.**

Bütün bunlar azmış kimi bu günlərdə ölkə prezidentinin Atoneli küçəsindəki iqamətgahı yenidən dartışma mövzusuna çevrildi. Hətta prezidentin zorla oradan çıxarılması fikrini səsləndirən qüvvələr də tapıldı. Ölkəmizin Abxaziya, Cənubi Osetiya kimi problemləri olduğu, adamların dolanışıq vasitələri uğrunda mübarizə apardığı bir vaxtda prezident iqamətgahı ilə bağlı bir məsələnin gündəmə çıxarılması, bu məsələyə az-çox aktuallıq donu geyindirilməsinin nə dərəcədə doğru olmasını söyləmək belə çətindir. Və, cənablar, bizim başqa azarımız yoxdurmu kimi bir sualı verməkdən özümüzü saxlaya da bilmədik.

Deyirəm dünyada baş verənlərə bir göz atmaq, olanlara, olacaqlara ötəri nəzər salmaq niyə də pis olsun ki? Dünyanın başı yenə də ölüb-öldürməyə qarışıb. Dünyanın güc mərkəzləri hələ də Suriyada silahlarını sınaqdan keçirməkdədirlər, bizim bilmədiyimiz hərbi-siyasi ekspermentlərini davam etdirməkdədirlər. İşin qəribə tərəfi də orasındadır ki, bu gün Suriyanın üstünə od yağdıranların hamsı bir-birinin qulağına pıçıldamış kimi, eyni bir zadı təkrarlamaqda sanki yarışa giriblər. Suriyada at oynadanların hamısı da Suriya xalqının ölkənin gələcək taleyini özü həll etməli olduğunu dilə gətirməkdən yorulmurlar. Ancaq biçarə suriyalıların ağlı ilə kimdir ki, oturub-duran? Onların ağlı ilə oturub-duran olsa idi ölkə əhalisi dünyanın dörd bir tərəfinə səpələnib, zəlil duruma düşməzdi.

İŞİD-in növbəti planı birbaşa bizim bölgəmizlə, daha doğrusu ölkəmizlə bağlıdır. Bizə gəlib çatan xəbərlərə görə, İŞİD ölkəmizdə Gürcüstan vilayəti təsis etmək niyyətindədir və ya artıq bu niyyətini gerçəkləşdirib. Bu məqsədlə artıq elektron rabitənin qurulduğu da gələn xəbərlər arasındadır. Ölkəmizin müşkülləri azmış kimi, biri də bu yandan gəlir və yəqin ki, Gürcüstan bu addımların xeyli əvvəl atıldığını da bilməmiş deyil.

Gündəmdən xeyli vaxtdır düşməyən, ayrı-ayrı adamlar tərəfindən fərqli şəkildə qiymətləndirilən İran hadisələri də maraq kəsb etməkdədir. Zaman-zaman ölkənin türk toplumunu təhqir edən, aşağılayan xəbərlərin rəsmi televiziyalarda səsləndirilməsi İranın danılması mümkün olmayan gerçəklərindəndir. Bu gün xalqı, daha doğrusu bu ölkənin vətəndaşları olan Azərbaycan türklərini ayaqlanmağa vadar edən də məhz belə proqramlardan birində onların milli kimliyini heçə sayan ifadələrin işlədilməsidir. Artıq Cənubi Azərbaycanın bir sıra şəhərlərində polislə qarşıdurmaların yarandığı, onlarla türk fəalının həbs olunduğu da gələn xəbərlər arasındadır.

Fransa gündəmini keçmiş prezident Sarkozi cənablarının isminin 35 milyon avroluq narkotika qalmaqalında hallandırılması yenicə məşğul edirdi ki, ölkəni terror dalğası sarsıdaraq, Sarkozi ətrafında dolaşan xəbərləri kölgədə qoydu. Bu ölkədə baş verən terror olayı bütün dünyanı fransızlarla həmrəyliyə səslədi. Və bunun alqışlanmalı bir hal olduğunu altını cızaraq söyləyirəm. Amma bu həmrəylik təkcə Fransa ilə yox, terror təhlükəsi ilə üzləşmiş istənilən ölkəyə münasibətdə də sərgilənməlidir. Axı, Fransada günahsız öldürülənlərin damarından qan sızdığı kimi, deyək ki, İraqda, Pakistanda öldürülənlərin də damarlarından su yox, qan axır. Bunu bütün dünya bilməlidir. Bu gün fransız bayrağı bürünənlər sabah Fələstin, Əfqanıstan bayrağına bürünəcəklərmi? Yoxsa üz-gözlərini turşutub, can onların, cəhənnəm Tanrının deyib əllərinimi yelləyəcəklər? Fransada öldürülənlər üçün kimi ağlayıb vaysındı, kimi yanıb yaxıldı, kimi də heç nə olmamış kimi davrandı, kimi də lap yaxşı oldu deyib sevindi.

**Düzünü Allah bilir. Siz özünüzü payızın soyuğundan qorumağı unutmayın.**

## QARDABANİDƏ TİKİNTİ MATERİALLARI FABRİKİ TİKİLİR

Noyabrın 10-da Gürcüstanın baş naziri İrakli Qaribaşvili Qardabanidə "Henkel" zavodunun tikintisinin təməlqoyma mərasimində iştirak edib. Baş nazir "Hengel"in Şərq regionunda yapışqanlı texnologiyalar sahəsi üzrə vitse-prezidenti Georq Hobenştraydla birlikdə, yapışqanlı sement istehsalı müəssisəsinin rəsmi təməlqoyma mərasimində iştirak edib.




""Henkel" kimi, böyük bir şirkətin Gürcüstana və bizim regiona birinci dəfə daxil olması sevindirici haldır. Mənim Davosda görüşlərim oldu. Bu ilin yanvar ayında "Henkel"in prezidenti ilə görüşdüm və bu görüşdən sonra Gürcüstanda yapışqanlı tikinti materialları istehsal edən müəssisənin tikintisi qərarlaşdırıldı. Bu regional əhəmiyyətli fabrik olacaq və bu fabrik təkcə Gürcüstanın yox, həm də Azərbaycanın və Ermənistanın bu materiallara olan tələbatını yüksək keyfiyyətli tikinti materialları ilə təmin edəcək. Həmçinin, onu da bildirim ki, burada həm tikinti prosesində, həm də sonra yerli insanlar işlə təmin ediləcək. Alman nizam-intizamının və keyfiyyətinin Gürcüstana daxil olması alqışlanmalı haldır. Bu çox vacibdir", – deyə baş nazir İrakli Qaribaşvili qeyd edib.

Xatırladaq ki, kimya sahəsində dünya liderlərindən olan "Henkel" şirkəti Gürcüstan ilə 2013-cü ilin sonundan maraqlanmağa başlayıb. Şirkət 2013-2014-cü illərdə Gürcüstanın investisiya mühitini araşdırıb və 2014-cü ilin yazında yapışqanlı sement istehsal edəcək müəssisənin Qardabani rayonunun ərazisində tikilməsinə qərar verib. Martkopi ərazisində yerləşəcək müəssisədə 35 nəfər işlə təmin ediləcək. Şirkət sözügedən layihəyə 8 milyon dollar dəyərində investisiya qoyacaq və işə 2016-cı ildən başlayacaq. "Henkel" 1876-cı ildə Almaniyada yaradılıb və hal-hazırda dünya miqyasında 49 000 nəfəri işlə təmin edir.

## GÜRCÜSTAN MÜSƏLMANLARI İDARƏSİNİN HESABAT KONFRANSI KEÇİRİLİB



GMİ-nin rəhbəri Hacı Ramin İgidov konfransda bir il ərzində Gürcüstan ərazisində 38 məscidin təmir olunduğunu, 11 məsciddə abdəstxana tikildiyini, 6 məscidə hasar çəkildiyini bildirib. Onun sözlərinə görə, Gürcüstanda bu günədək 86-dan çox məscid qeydiyyatdan keçib. Bir il ərzində GMİ 33 adda dini kitab nəşr etdrlib. Quran Azərbaycan dilində nəşr olunaraq, dindarların ixtiyarına verilib. 39 məsciddə səs cihazları quraşdırılıb. GMİ-nin internet televiziyası vasitəsi ilə 130 veriliş yayımlanıb.

Cəzaçəkmə müəssisələrindəki müsəlmanlarla görüşlər keçirilib.

Ramazan və Qurban bayramlarında kasıb və kimsəsiz ailələrə, həmçinin Tbilisidə təbii fəlakətdən zərərçəkənlərə yardım olunub. İdarənin təşkilatçılığı ilə Pankisi və Acarıstanda pulsuz tibbi xidmət və müayinə aparılıb. 16 nəfərə əlil arabası verilib.

İl ərzində Batumidə GMİ-nin fəaliyyəti üçün yeni ofis və mədrəsə binası istifadəyə verilib. GMİ-nin nəzdində Xeyriyyə Fondu yaradılıb. İdarədə 3 elmi konfrans, 9 müxtəlif konfrans, sərgi, dindarlarla və dövlət rəsmiləri ilə görüşlər keçirilib.

GMİ "Gürcüstanda fəaliyyət göstərən dini təşkilatlar arasında qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Memorandum" da imzalayıb.

Tədbirdə Gürcüstanın Dini Məsələlərlə iş üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze da çıxış edib. O bildirib ki: "Biz hələlik dövlətin balansında olan məscidləri təmir edirik, ikinci mərhələdə isə digər məscidləri qeydiyyatdan keçirib onların bərpasına başlayacağıq".

GMİ-nin illik hesabat konfransında Fransada baş verən terror aktlarını pisləyən bəyanat da qəbul edilib.

## GÜRCÜSTANDA "ƏMƏK MİQRASİYASI HAQQINDA" QANUN QÜVVƏYƏ MİNDİ

"Əmək miqrasiyası haqqında" qanun qüvvəyə mindi. Qanun Gürcüstan vətəndaşlarını xaricdə işlə təmin edən təşkilatların dövlət qeydiyyatından keçməsini tələb edir. Qanunda nəzərdə tutulur ki, Gürcüstan vətəndaşlarını xarici ölkələrdə işə düzəldən təşkilatlar işə düzəltdikləri şəxslərin uçotunu aparmalı və işə düzələnlərə aid sənədləşmələri beş il müddətində saxlamalıdırlar.

Müqavilədə şirkətin bütün rekvizitləri, göstərdiyi xidmətlərin siyahısı və məzmunu, iş haqqında məlumat və şübhəli məlumat təqdim etdiyi təqdirdə təşkilatın məsuliyyəti göstərilməlidir.

Əgər Gürcüstan vətəndaşı özü əcnəbi təşkilatla əmək müqaviləsi bağlamaq qərarına gəlibsə, o halda o Gürcüstanın əmək, səhiyyə və sosial müdafiə nazirliyinə məsləhət üçün müraciət edə bilər.

Müqavilə işlə təmin edən ölkənin qanunvericiliyi əsasında bağlanmalı, müqavilədə iş verən və işçi barədə bütün məlumatlar, eləcə də iş şəraiti, müqavilənin fəaliyyət müddəti digər gərəkli məlumatlar göstərilməlidir.

Yeni qanun Gürcüstan vətəndaşlarına və ölkədə daim yaşamaq hüququ olan şəxslərə şamil olunur.

Vətəndaşları xaricdə işlə təmin etməklə məşğul olan şirkətlərin sahibkarlıq reyestrində qeydiyyata düşmələri üçün 1 may 2016-cı ilədək vaxtları var.

"Əmək miqrasiyası haqqında" qanunun tələblərini yerinə yetirmədiyi təqdirdə işə düzəldən şirkəti ilk dəfə 500 lari, qanun pozuntusu təkrarlandıqda isə 1000 lariyədək cərimə olunacaq.

## "GÜRCÜSTAN VƏ AZƏRBAYCAN ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ DOSTLUQ MÜNASİBƏTLƏRİ" MÖVZUSUNDA GÖRÜŞ KEÇİRİLİB

Tiflisdə fəaliyyət göstərən Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyət Muzeyində Gürcüstan Parlamentinin Milli Kitabxanasının və Mədəniyyət muzeyinin təşəbbüsü və təşkilatçılığı ilə "Gürcüstan və Azərbaycan arasında mədəniyyət sahəsində dostluq münasibətləri" mövzusunda görüş keçirilib.

Ttədbirdə Azərbaycanın Gürcüstandakı səfirliyinin mədəniyyət və hümanitar məsələlər üzrə müşaviri Samirə Ağayeva, Gürcüstan Mədəniyyət və Abidələrin Mühafizə Nazirliyinin əməkdaşları, gürcü və azərbaycanlı ziyalılar, mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.



Görüşü Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyət Muzeyinin direktoru Leyla Əliyeva və Gürcüstan Parlamentinin Milli Kitabxanasının direktor müavini Mirian Xositaşvili açıblar. Sonra gürcü ziyalılarından Meri Kobiaşvili, tarix elmləri doktoru, professor Quram Marxuliya, tarix üzrə araşdırmaçı professor Petre Qoçaqidze-Çaladidi, Gürcüstan Azərbaycanlı Ağsaqqallar Şurasının sədri İshaq Novruzov və başqaları Gürcüstan və Azərbaycan mədəni əlaqələrin inkişafından, noyabrın 5-6-da Azərbaycan prezidenti İlham Əliyevin Gürcüstana rəsmi səfərindən söhbət açıblar.

Görüşdə Gürcüstanda yaşayan azərbaycanlı və gürcü ziyalılarının iştirakı ilə hər iki ölkənin mədəniyyəti ilə bağlı kitabın nəşr olunması təklifi irəli sürülüb. Gürcüstan Parlamentinin Milli Kitabxanasının direktor müavini Mirian Xositaşvili çıxışında azərbaycanlılarla gürcülərin mədəni həyatından bəhs edən kitabın dosluqdan bəhs edəcəyini bildirib: " Bu kitabın yaranmasına parlamentin milli kitabxanası və mədəniyyət muzeyi dəstək verəcək. Kitabda Gürcüstan və Azərbaycan dostluğundan, Gürcüstanda yaşayan görkəmli mədəniyyət və incəsənət xadimlərinin həyatından bəhs edən məqalələr dərc olunacaq. Bu kitab böyük abidə olmalı və biz tarixi dostluğumuzu təbliğ etməliyik. Gürcülərdən sonra ölkəmizdə ikinci böyük millət azərbaycanlılardır. Biz dostluğumuzu daim inkişaf etdirməliyik," M. Xositaşvili qeyd edib.

Tədbirdə həmçinin Gürcüstanın bütövlüyü uğrunda döyüşən və Gürcüstan tarixində xalq qəhrəmanı kimi yer alan Xudu Borçalının da həyatı barədə kitaba məqalə yerləşdirilməyi təklif olunub. Görüşün sonunda mədəni əlaqələrin inkişaf etdirilməsi barədə Gürcüstan Parlamentinin Milli Kitabxanası və Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyət Muzeyi arasında memorandum imzalanıb.

Nizami Məmmədzadə

## Aİ AZƏRBAYCANIN VƏ GÜRCÜSTANIN SƏRHƏDYANI BÖLGƏLƏRİNİN ƏMƏKDAŞLIĞINI MALİYYƏLƏŞDİRƏCƏK

Avropa İttifaqı Azərbaycanın və Gürcüstanın sərhədyanı bölgələrinin ərazi əməkdaşlığına 1,35 milyon avro ayıracaq.

Şərq tərəfdaşlığı ölkələrinin ərazi əməkdaşlığının layihə nümayəndələri bildiriblər ki, proqramın spesifikası ondan ibarətdir ki, yalnız sərhədyanı ərazilərdə qeydiyyatdan keçmiş təşkilatlar ərizə verə bilərlər.



Şərtlərdən biri də Gürcüstan və Azərbaycan təşkilatlarının müraciəti birgə hazırlayıb verməsidir. Layihə çərçivəsində tədbirlər Azərbaycanın Gəncə-Qazax və Şəki-Zaqatala, Gürcüstanın Kaxeti və Kvemo-Kartli bölgələrini əhatə etməlidir.

Hər müraciətə 20-250 min avro məbləğində qrant verilə bilər. Ərizələrin son təqdim olunma müddəti 17 dekabr 2015-ci ildir.

Əvvəlcədən aparılmış tədqiqatlar nəticəsində hər iki ölkə üçün aktual olan mövzular müəyyənləşdirilib. Onlardan bəziləri aşağıdakılardır:

- sərhədyanı bölgələrdə yerli icmaların həyat şəraitinin yüksəldilməsi;
- kənd təsərrüfatı, turizm sahəsində sosial-iqtisadi inkişafa yardım etmək;
- ətraf mühitin mühafizəsi, məşğulluq, fövqaladə vəziyyətlərin nəticələrini aradan qaldırmağa hazır olmaq kimi ümumi problemlərin həlli;
- mədəniyyət, təhsil, idman və gənclər arasında əlaqələrin inkişafı.

Noyabrın 6-da Bakıda müsabiqənin şərtlərinə dair görüş keçirilib.

Şərq tərəfdaşlığı ölkələrinin ərazi əməkdaşlığı proqramının məqsədi Azərbaycan-Gürcüstan, Ermənistan-Gürcüstan, Belarus-Ukrayna, Moldova-Ukrayna ərazi əməkdaşlığı proqramı üçün hər bölgənin spesifikası nəzərə alınmaqla əlverişli şərait yaratmaqdan ibarətdir.

## 1661 MƏHBUS İD-KARTLARI PULSUZ ALACAQ

Gürcüstan ədliyyə naziri Tea Sulukiani cəzaçəkmə müəssisələrində cəza çəkən məhbusların bəraət qazanmaları prosesinə kömək etmək məqsədilə 1661 məhbusu yeni şəxsiyyət vəsiqəsi almaq üçün ödənişdən azad edib.

Məhbuslar İD kartları cəzaçəkmə müəssisələrində alacaqlar.

Ədliyyə nazirliyinin təşəbbüsü ilə Cinayətləri önləyən mərkəz 2013-cü ildən keçmiş məhbusların bəraət qazanmaları üçün proqram həyata keçirir. Bu keçmiş məhbuslara ilk dövlət yardımı proqramıdır. Bu proqram onların bəraət alaraq, cəmiyyətə tam hüquqlu üzv kimi qayıtmaları məqsədi güdür. Mütəxəssislər belə hesab edirlər ki, keçmiş məhbuslara dövlət tərəfindən qayğı göstərilməsi onları təkrar cinayət törətməkdən qorumağın ilkin şərtidir.

## HÖKUMƏT PREZİDENTİ MƏCBURİ QAYDADA İQAMƏTGAHINDAN ÇIXARACAQMI?



Prezident iqamətgahı ilə bağlı məsələ yenidən aktuallıq qazanıb. İqtisadiyyat naziri Dmitri Kumsişvili bəyan edib ki, Atoneli küçəsindəki iqamətgah haqqında vaxtında qərar qəbul etmək lazımdır. Onun bəyanatını keçmiş baş nazir Bidzina İvanişvili şərh edərək, prezidentin iqamətgahı tərk etməməsini "həyasızlığın ən yüksək pilləsi" kimi qiymətləndirmişdir. "Hamı qanuna riaiyət etməli, Gürcüstan dövlətinə hörmət göstərməlidir. Ilk növbədə də prezident… Şübhəsiz, bu, başa çatmalıdır və o, bunu istəsə də, istəməsə də başa çatmalıdır. Dövlət dövlət olmalı və strukturlar öz səllahiyyətlərini yerinə yetirməlidirlər. Hökumət bəyan etmişdir ki, qanuni hərəkət etmək istəmir. Ancaq bunun vaxtı artıq yetişib", – Bidzina İvanişvili bəyan edib.

Marqvelaşvilinin müşaviri Kaxa Kojeridzenin sözlərinə görə, prezident harasa daşınmağa hazırlaşmır. İqamətgahın taleyinin prezident administrasıyasına aidiyyəti yoxdur. Bu barədə hökumətdən soruşmaq lazımdır.

"Rezonansi" qəzeti "Siz hökumətin prezidenti iqamətgahından məcburi qaydada çıxarmasını gözləyirsinizmi?" – sualı ilə ictimaiyyətin nümayəndələrinə müraciət edib.

Avto Sulaberidze (demoqraf): "Bidzina İvanişvili xərcləri qeyd edib, onlarsa nəyə görəsə bu barədə danışmırlar. Prezident ölkə ilə hesablaşmalıdır. Axı bu xərcləri biz ödəyirik; o, bəlkə daha kiçik binaya köçsün? Düşünürəm ki, buna iqtisadi müstəvidə baxmaq lazımdır. Mən düşünmürəm ki, Bidzina İvanişvilini Marqvelaşvilinin harada işləməsi maraqlandırır. Əsas iqtisadi maraqdır, belə ki, Avlabar iqamətgahının saxlanması çox baha başa gəlir".

Tako Çarkiviani (publisist): "Mən düşünmürəm ki, onlar onu məcburi qaydada çıxarsınlar, hökumət belə bir addım atsın. Mümkündür ki, İvanişvili bunu elə belə deyib. Bir vaxtlar Marqvelaşvili bəyan etmişdi ki, bu iqamətgaha getməyəcək, ola bilsin buna görə İvanişvili inciyib. Artıq Marqvelaşvili orada işləyir, ona görə də onu oradan çıxarmaq olmaz, hər halda o, Gürcüstan prezidentidir. Ona qarşı yönəlmiş istənilən hərəkət müəyyən dərəcədə prezident təsisatını laxladır".

Qiya Buqadze (rəngkar): "Qanunvericilik məsələlərində mən çox səriştəli deyiləm, lakin bildiyimə görə, yalnız prezident özünün harada işləməsinə qərar verə bilər. Heç kim qanuni əsasda onu iqamətgahdan çıxara bilməz. Bu çox gülməli vəziyyətdir. Açıq deyirəm ki, bu yaxşı hal deyil. Biabırçılıqdır. Biz başqa məsələlər barədə düşünməlyik, mübahisə etməliyik ki, dövlətin resursları hara xərclənir, ölkə dağılıb gedir, adamlar acından qırılır. Biz patoloji vəziyyətdəyik".

Serqo Vardosanidze (tarixçi): "Mən heç nə deyə bilmərəm. Düşünmürəm ki, bu yaxşı haldır. Bu gün Gürcüstanın qarşısında daha ciddi məsələlər durur, biz Marqvelaşvilinin hansı iqamətgahda olmasını müzakirə etməməliyik. Qoy onlar seçki qabağı verdikləri vədləri yerinə yetirsinlər. Marqvelaşvili o iqamətgaha getməyəcəyini bildirmişdi. Düşünürəm ki, bu məsələ birinci dərəcəli vacib və aktual məsələ deyil. Bizə daha vacib məsələləri həll etmək lazımdır".

## GÜRCÜSTAN PREZİDENTİ SAAKAŞVİLİNİ VƏTƏNDAŞLIQDAN MƏHRUM ETMƏYƏ HAZIRDIR

Prezidentin parlament katibi Qeorqi Kverençxiladze noyabrın 13-də jurnalistlərə məlumat verib ki, Gürcüstan prezidenti Qeorqi Marqvelaşvili qanunun tələb etdiyi kimi öz sələfi Mixail Saakaşvilininin Gürcüstan vətəndaşlığının ləğv edilməsi haqqında sənədi imzalamağa hazırdır.

Gürcüstan ədliyyə nazirliyi 2015-ci ilin oktyabr ayının sonlarında Ukrayna vətəndaşlığı aldığına görə, keçmiş prezident Mixail Saakaşvilinin Gürcüstan vətəndaşlığını ləğv etmək proseduruna başlayıb. Saakaşvili Ukrayna vətəndaşlığını iyunda alıb, bundan sonra onu Odessa vilayətinin qubernatoru təyin ediblər.

"Ədliyyə nazirliyindən ayda prezident administrasiyasına vətəndaşlığın ləğv olunması haqqında yüzlərlə ərizə daxil olur. Prezident analoji hallarda digər vətəndaşlara münasibətdə hansı qərarı qəbul edirsə, o cür də hərəkət edəcək. Keçmiş prezidentə görə və ya istənilən digər vətəndaşa görə prezident Konstitusiyanı pozmaz", – Qeorqi Kverençxiladze bildirib.

Prezidentin parlament katibi sonda əlavə edib ki, fəaliyyətdə olan qanunlara görə, Gürcüstan vətəndaşının hər hansı bir xarici ölkənin vətəndaşlığını alması həmin şəxsin Gürcüstan vətəndaşlığından məhrum edilməsi üçün əsas ola bilər.



Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

## ÖLKƏMİZİN QAZ BAZARINDAKI QIZĞINLIĞIN SİRRİ

**Noyabrın 5-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Gürcüstana iki günlük rəsmi səfəri böyük maraqla izlənilirdi. Şübhəsiz ki, bu səfərin ana mövzusunu son zamanlar Azərbaycan qazının ətrafında yaranan qaranlıq məsələlər təşkil edirdi. Son günlər regionda iqtisadi maraq baxımından hadisələrin sürətlə biri-birini əvəz etməsi diqqətdən kənarda qala bilməzdi. Gürcüstanın energetika naziri Kaxaber Kaladzenin Rusiyadan qaz idxal etmək üçün bu ölkənin transmilli korporasiyası olan "Qazprom"la danışıqlara başlaması haqda məlumat verməsi Gürcüstanın enerji bazarında dominat mövqe tutan Azərbaycanı narahat etməyə bilməzdi. Üstəlik, yaxın gələcəkdə İranın da Gürcüstanın qaz bazarına daxil olması rəsmi Bakının bu sahədə qayğılarını iki qat artırmaqdadır.**

Xatırladaq ki, Gürcüstanın Rusiyadan idxal etdiyi qaz kəmərində 2006-cı ilin qış mövsümündə baş vermiş müəmmalı "qəza" hadisəsindən sonra ölkəmizin qaza olan tələbatını tam şəkildə Azərbaycan ödəyir. Bundan başqa Gürcüstan Rusiyanın Ermənistana ixrac etdiyi qazın ümumi həcmindən tranzit haqqı kimi 10% pay əldə edir. Hal-hazırda Gürcüstan sərfəli qiymətlərlə üç ayrı-ayrı paket halında Azərbaycandan qaz idxal etməkdədir. Avropa bazarında müştərilərini itirən və gələcəkdə itirmək təhlükəsini ənsəsində hiss edən Rusiya neft və qaz bazarında yeni alıcılar axtarışındadır. Məsələnin görünməyən tərəfi ondan ibarətdir ki, "Qazprom"un Gürcüstanın enerji bazarına daxil olmasını və gələcəkdə bu bazarda "at oynatmasını" Kremlin rəsmi Tbilisiyə siyasətin bütün müstəvilərində təzyiq və şantajı kimi proqnozlaşdırmaq olar. Bunu yuxarıda qeyd edilən məlum "qəza" hadisəsi, Moskvanın Tbilisiyə "nə demək istəməsi" ilə də isbat etmək olar. Çünki, günmüzün reallığında qaz və digər enerji qaynaqlarının geopolitik siyasətdə həlledici faktora çevrilməsi heç kimə sirr deyil. Gələcəkdə Rusiyanın Azərbaycanı Gürcüstanın neft və qaz bazarından sıxışdırıb çıxarmayacağı ehtimalına indidən heç kim zəmanət verə bilməz. Bununla da Gürcüstanın enerji təhlükəsizliyi Moskvanın əlinə keçmiş olacaqdır.

İlham Əliyevin Tiflis səfərindən bir neçə gün öncə Ermənistan prezidenti Serj Sarkisyanın Gürcüstan ziyarətini bütün regional və beynəlxalq lahiyələrdən kənarda qalmış Yeravanın yeni qaz və neft lahiyələrinə qoşulma variantlarını müzakirə etməyə cəhdi kimi qiymətləndirmək heç də çətin deyil. İrəvanın canfəşanlığı İranın enerji mənbələrinin Avropaya və Gürcüstana ixrac edilməsində Ermənistanın tranzit ölkə kimi lahiyələrə qoşulmasından ibarətdir. Gürcüstanın İrandan qaz idxal etməyə başlaması Ermənistan ərazisindən keçəcək yeni boru xəttinin çəkilməsi deməkdir. Bu isə rəsmi Bakının həm iqtisadi, həm də siyasi maraqlarına ziddir. Belə olan halda məsələnin uzun illərdən bəri mövcüd olan Azərbaycan-Gürcüstan strateji portnyorluğuna nə dərəcədə təsir etməsi düşündürücüdür. Digər tərəfdən Ermənistanın Rusiyadan idxal etdiyi "mavi yanacağın" həcminin artırılmasında istəkli olduğu haqda açıqlama verməsi də Tbilisinin maraqları çərçivəsindədir. Belə olan halda Rusiyanın Ermənistana ötürdüyü qaz axınından tranzit haqqı kimi Gürcüstan əlavə mənfəət əldə etmiş olacaqdır.

Bölgədə cərəyan edən qaz labirintinə köhnə qitənin və okeanın o tayından necə reaksiya verilməsi də, diqqətdən qaçmamalıdır. İranın üzərindən qismən də olsa embarqoların götürülməsi Moskvanı nə dərəcədə əndişələndirir? Belə ki, hər zaman Kremlə qarşı siyasətdə alternativ variantlardan istifadə edən Qərbin bu addımı yaxın prespektivdə neft və qaz potensialı ilə zəngin olan İranı Rusiya ilə üz-üzə qoymağa hesablanmışdır. Yənı, ABŞ üçün bu gün düşmənlər içərisində "ən yaxşı" düşmən İrandır. Adıgedən Fars körfəzi ölkəsinin Avropaya qaz nəqlinə başlamasını Rusiyanın bu sahədə hegomoniyasını zəifləmək kimi dəyərləndirmək olar.

**İlham Əliyevin uzun illər nəinki Gürcüstanın, hətta bir sıra Avropa ölkələrinin ardıcıl və davamlı olaraq qazla təmin edilməsi üçün Azərbaycanın kifayət qədər qaz potensialının olduğunu vurğulamasına baxmayaraq, rəsmi Tbilisinin alternativ ölkələrlə bu sahədə əməkdaşlıq etməsinin pərdəarxası məqamları yaxın gələcəkdə aydın olacaq. Doqquz il bundan öncə rus qaz axınının tam dayanması zamanı, Gürcüstan humanitar fəlakətin bir addımlığında olarkən, məhz Azərbaycan yardım əlini uzatmışdır. Görünür ki, siyasətdə daimi heç nə yoxdur, daimi olan yalniz daim dəyişən maraqlardır.**

## İLHAM ƏLİYEV: AZƏRBAYCAN QONŞULARINI VƏ AVROPANI 100 İL SONRA DA QAZLA TƏMİN EDƏ BİLƏR

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev bəyan edib ki, Azərbaycan Avropanı 100 il sonra da qazla təmin etmək üçün kifayət qədər təbii qaza malikdir. Bu barədə o, özünün noyabrın 5-6-da Gürcüstana rəsmi səfərinin gedişində bildirib.

"Azərbaycan böyük qaz ehtiyatlarına malikdir. Hətta 100 il sonra da yalnız özünü yox, qonşularını və Avropanı qazla təmin edə bilər. Azərbaycanda tranzit yüklərlə bağlı komissiya yaradılıb, biz yük dövriyyəsini artırmaq üçün Gürcüstanla vahid siyasət həyata keçirmək istəyirik", – Azərbaycan prezidenti bəyan edib.

İndiki halda İlham Əliyevin bəyanatı Gürcüstanın energetika naziri Kaxa Kaladzenin Azərbaycanın Gürcüstanı kommersiya qazı ilə təmin etmək imkanları yoxdur bəyanatına cavabdır. Gürcüstan energetika nazirliyi Rusiyanın "Qazprom" şirkəti ilə danışıqlara başlamasını bununla əsaslandırmaq istəyərək, özünə haqq qazandırırdı.

## GÜRCÜSTANDA İLK KÜLƏK ELEKTRİK STANSİYASININ TİKİNTİSİ ÜÇÜN TENDER ELAN OLUNDU



Gürcüstan energetika nazirliyinin məlumatında bildirilir ki, Dövlət SC "Gürcüstan energetikasının inkişafı fondu" ölkədə 20 MVt gücündə ilk külək elektrik stansiyasının tikintisi üçün tender elan edib.

Verilən məlumata görə, layihə üçün Tbilisidən 70 km qərbdə, Qori şəhəri yaxınlığında sahə seçilib. Külək Elektrik Stansiyası 2MVt gücündə 10 külək turbinindən ibarət olacaq.

Layihənin ümumi investisiya dəyəri 35 milyon dollara yaxın, o cümlədən də Avropa yenidənqurma və inkişaf bankının ayırdığı 25 milyon dollar kreditdən ibarətdir.

Maraqlanan şəxslərin ərizəsi dekabrın 25-dək qəbul olunacaq. Şərtlərə görə, namizədlərin əsas podratçı kimi son 5 il müddətində orta illik dövriyyəsi 20 milyon dollardan az olmamalıdır.

Layihənin həyata keçirilməsində "Gürcüstan energetikasının inkişafı fondu"nun məsləhətçisi Beliçkanın Tractebel-Engineering şirkətidir.

Mütəxəssislərin hesablamalarına görə, Gürcüstanda külək enerjisinin texniki potensialı ildə 4-4,5 milyard kVt.s və ya ölkənin elektrik enerjisinə olan tələbatının 50%-ini təşkil edir.

Xatırladaq ki, "Gürcüstan energetikasının inkişafı fondu" Səhmdar Cəmiyyəti Gürcüstan hökumətinin qərarı ilə 2011-ci ildə təsis edilmişdir.

## UKRAYNANIN PATRUL POLİSİ CƏNUBİ OSETİYA VƏ ABXAZİYA NÖMRƏLİ MAŞINLARI CƏRİMƏLƏYƏCƏK

Ukrayna patrul polisi qondarma Cənubi Osetiya və Abxaziya respublikalarının nömrələri ilə hərəkət edən avtomobillərin sürücülərini cərimələyəcək. Bu barədə idarənin Facebookdakı səhifəsində məlumat verilir.

"Beləliklə nəqliyyat vasitələrində bu və ya buna bənzər tanınmamış dövlət qurumlarının nömrə nişanları olan maşınlar nömrəsiz maşınlara bərabər tutulacaq. Belə şəraitdə polis qanuna uyğun olaraq hərəkət edəcək", – məlumatda bildirilir.

Qeyd olunur ki, Ukrayna qanunlarında avtomobillərin nömrəsiz idarə olunması üçün cərimə nəzərdə tutulur.

## ŞAMAXI RƏSƏDXANASI NASA-NIN FİKİRLƏRİNİ TƏKZİB EDİR

Şamaxı Astrofizika Rəsədxanası yer kürəsinin 15 gün zülmətə qərq olacağı ilə bağlı NASA astronomlarının sensasiyalı bəyanatına münasibət bildirib.

Rəsədxananın elmi işlər üzrə direktor müavini Xıdır Mikayılov Aznews.az-a açıqlamasında qeyd edib ki, günəş 2016-cı il martın 9-da tutulacaq:

"Keçən il sentyabrın 13-də günəş tutuldu və qaranlıq da olmadı. Bu hadisə bir də gələn il martın 9-da və sentyabrın 1-də baş verəcək. Yazırlar ki, Venera gedib Yupiterin yanına çatacaq, atmosferi qızdıracaq. Nəticədə Yupiter təzədən günəşə böyük enerji verəcək. Noyabrın 15-də yerdən Venera 120 milyon kmilometr, Mars 300 milyon kilometr, Yupiter 800 milyon kilometr məsafədə olacaq. Bu qədər uzaq məsafədə olacaqsa, Venera necə Yupiterin səthini qızdıra bilər?"

X.Mikayılov bunları cəfəngiyyat hesab edir: "Yalan söhbətlərdir. Yəqin yenə də mağazalarda şamlar satılmır. Bunlar mağazalarda satılmayan şamlarla əlaqədardır. İndi də buna əl atıblar".

Qeyd edək ki, NASA rəhbəri Çarlz Bolden yer kürəsinin bu il noyabrın 15-dən 29-a kimi qaranlığa bürünəcəyini bəyan edib. Bununla bağlı NASA ABŞ prezidenti Barak Obamanın adminstrasiyasına bu hadisənin səbəblərini və nəticələrini əks etdirən min səhifəlik sənəd təqdim edib.

## RUSİYA USSİRİYSK YAXINLIĞINDAKI TORPAQLARI ÇİNƏ VERDİ

Çin Rusiya-Çin sərhədi ərazisində, Ussiriysk yaxınlığında 4,7 kvadrat kilometr torpaq sahəsi üzərində nəzarətini bərpa edib. Bu barədə China Daily məlumat verib.

Bu ərazilər 1856-1860-cı illərdə II Tiryək müharibəsində Çinin məğlubiyyətindən sonra Rusiya imperiyasının nəzarətinə keçib. Nəşrin məlumatına görə, 1858-ci ildən 1915-ci ilə qədər Çində hakimiyyətdə olan Tsin sülaləsi Rusiyaya "hüquqca bərabər olmayan müqavilə" əsasında 1,5 milyon kvadrat kilometr ərazi güzəştə gedib.

China Daily məlumat verir ki, noyabrın 4-də Çinin şimalında Qirin əyalətində beş yeni sərhəd nişanı qoyulub. Bununla da Çin əsr yarımdan sonra itirdiyi torpaqların bir hissəsini özünə qaytarıb.

Sahə Xunçun bələdiyyəsinə verilib. Məsələ ilə bağlı Rusiya tərəfi hələlik heç bir açıqlama verməyib.

## GÜRCÜSTAN TEXNİKİ CƏHƏTDƏN ELEKTRON SEÇKİLƏRƏ HAZIRDIR



Ədliyyə naziri Tea Sulukiani Avropa İttifaqının qardaşlaşma ictimai xidmətinin ikinci layihəsinin açılış mərasimində bəyan edib ki, Gürcüstan texniki cəhətdən elektron seçkilər keçirməyə hazırdır.

Onun sözlərinə görə, layihənin məqsədi Gürcüstanda elektron idarəetmənin inkişafına yardım etməkdir. Gürcüstan və Estoniyanın bu sahədəki birgə fəaliyyəti göstərir ki, Gürcüstan texniki nöqteyi-nəzərdən elektron seçkilərin keçirilməsinə hazırdır. Lakin nazir bildirib ki, bunu gerçəkliyə çevirmək üçün digər addımların da atılması gərəkdir.

"Digər addımlar dedikdə qanunvericilikdə dəyişikliklərin edilməsi, elektron şəxsiyyət vəsiqələrinin populyarlaşdırılması, bütün Gürcüstanda, o cümlədən də kəndlərdə internetin mümkün olması nəzərdə tutulur", – Tea Sulukiani əlavə edib.

Ədliyyə nazirinin sözlərinə görə, Ilk növbədə elektron seçkilər xaricdə yaşayan Gürcüstan vətəndaşlarının seçkilərdə iştirakını mümkün edəcək.

## BMT-DƏ GÜRCÜSTANDA HÜQUQLARIN QORUNMASI QİYMƏTLƏNDİRİLİB

Gürcüstan xarici işlər nazirliyi mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, BMT ölkələri Gürcüstanda məhkəmələrin müstəqilliyi və KİV-in azadlığı, antidiskriminasiya qanununun yaradılması, pulsuz hüquqi köməyin gücləndirilməsi sahəsində tərəqqininin olduğunu qeyd ediblər.

Cenevrədə Universal dövri xülasə (Universal Periodic Review) çərçivəsində BMT-nin İnsan hüquqları Şurasında Gürcüstan nümayəndə heyəti 2011-ci ildən insan hüquqlarının qorunmasını yaxşılaşdırmaq məqsədilə Gürcüstanın həyata keçirdiyi islahatlar və tədbirlər haqqında informasiya təqdim edib.

Gürcüstan haqqında hesabatın müzakirəsində BMT-yə üzv olan 71 dövlətin nümayəndəsi iştirak edib.

BMT ölkələri Gürcüstan hakimiyyətinə göstərilən sahələrdə islahatları davam etdirməyi tövsiyə edib.

Məlumatda bildirilir: "Gürcüstanın gündəmində hələ də qalan məsələlərlə bağlı tövsiyələr səsləndirilib. Bu nöqteyi-nəzərdən qadın, uşaq və məhdud imkanlı şəxslərin hüquqlarının müdafiəsi xüsusilə nəzərə çatdırılıb".

## GÜRCÜSTANDA DÖVRIYYƏYƏ YENİ ƏSKİNASLAR BURAXILACAQ

Gürcüstan Milli bankı 20, 50 və 100 larilik əskinasları yeniləyir. Yeni əskinaslar 2016-cı ildən tədavülə buraxılacaq.

Gürcüstan Milli bankının rəhbəri Qeorqi Kadaqidze banknotların noyabrın 3-də keçirilən təqdimat mərasimində bəyan edib ki, yeni əskinaslar mərhələlərlə yenilənəcək. Yeni əskinasların üzərində Gürcüstan maliyyə nazirinin imzası olmayacaq.

Onun sözlərinə görə, əskinasların yeni tərtibatı yüksək dəqiqliyi ilə seçilir və Gürcüstanın müasir tarixi-mədəni irsini əks etdirir.

Yenilənmiş lari əskinasları elə materialdan hazırlanıb və elə qoruyucu mexanizimə malikdir ki, onun köməyi ilə çirklənməyə və didilməyə az məruz qalacaq.

Qeyd etmək lazımdır ki, yenilənmiş 20, 50, 100 lari dəyərindəki əskinasların tərtibatçısı Baça Malazoniyadır.



## İLİN ƏVVƏLİNDƏN ÖLKƏMİZƏ 5 000 000 ƏCNƏBİ GƏLİB

2015-ci ilin yanvar-oktyabr aylarında Gürcüstana 4 milyon 995 min 489 əcnəbi gəlib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,8% çoxdur. Bu barədə Gürcüstan daxili işlər nazirliyinin analitik informasiya mərkəzi məlumat verib.

Səfər edənlərdən 1 979 405 nəfəri turist, 1 217 978 nəfəri tranzit, 1 798 106 nəfəri başqaları olub.

2015-ci ilin oktyabrında Gürcüstana səfər edənlərin sayı 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 7,3% artaraq 504 450 nəfər təşkil edib.

Ölkəmizə gələnlər arasında Rusiyadan (15,3% artıq), Ukraynadan (10% artıq), Ermənistandan (9,2% artıq), Türkiyədən (3,7% az) və Azərbaycandan (5% çox) gələnlər üstünlük təşkil edib.

## GÜRCÜSTANDA ORTA AYLIQ ƏMƏKHAQQININ YUXARI VƏ AŞAĞI HƏDDİ NƏ QƏDƏRDİR?

2014-cü il üzrə muzdla çalışanların orta aylıq əmək haqqı 818 lari təşkil edib. Məlumat üçün deyək ki, 1998-ci ildə bu göstərici 56 laridən yuxarı olmayıb. Illər ərzində muzdla çalışanların əmək haqqı fasiləsiz olaraq artıb. Gürcüstan Milli statistika xidmətinin məlumatına görə, bu məsələdə ən böyük dəyişiklik 2007-2008-ci illərdə həyata keçirilib və qulluqçuların əmək haqqı bir il ərzində 166 vahid artaraq 368 laridən 534 lariyə yüksəlib.

Keçən il ən yüksək ödəniş maliyyə sektorunda 1590 lari, dövlət idarəçiliyində 1232 lari, inşaat sferasında 1039 lari təşkil edib.

Maraqlıdır ki, "Sakstat"ın məlumatına görə, ən aşağı orta aylıq əmək haqqı təhsil sahəsində qeydə alınıb, hazırda 456 lari təşkil edir. Mehmanxana və restoranlarda orta əmək haqqı 477 larini, balıqçılıq və kənd təsərrüfatında 503-504 larini keçmir.

Afayət AFİQ

## İNSAN HƏYATININ DƏYƏRİ



**... Bu başlıqla bir yazı yazıb, ədəbi müsabiqəyə göndərəcəkdim. Burda qulağımızın dibindəcə keçirilir. Ancaq, tənbəllik imkan vermədi. Yazmamaq üçün min cür bəhanə tapdım... Nə isə. Olmuşla ölmüşə çarə yoxdur deyiblər. Lakin, məsələ burasındadır ki, bu mövzu özü heç vəchlə yadımızdan, həyatımızdan uzaqlaşmır. Yəqin razılaşarsınız ki, insan həyatı hər keçən gün əvvəlkinə nəzərən bir az daha ucuzlaşır, dəyərdən düşür. Bu haqda daha çox, daha ucadan danışılsa da insan həyatı gerçəkdə öz dəyərini itirməklə məşğuldur. Bunlar sadəcə insanların müzakirə, danışıq, söz ehtiyacını ödəməkdən başqa bir mahiyyət daşımamağa başlayıb. Elə biri mən, qəzet üçün hansı mövzudan yazacağımı bildmirdim. Bir ara düşündüm ki, bəxtəvər başımıza yəqin daha narahat olmalı, yazmalı bir şey qalmayıb. Ona görə də nə yazacağımı bilmirəm.**

Yenə sağolsun , cəmi bir neçə gün öncə "Dərviş" Parisi partlatdı. Bütün dünya ağzıbir bu mövzuya kökləndi. Məmə deyənindən pəpə deyəninə hamının ağzına söz oldu, dillərə düşdü Paris...

Heç şübhəsiz ki, müxtəlif yönlərdən, müxtəlif baxış bucaqlarından. Hamımız dişimizin dibindən çıxanı tökdük Parisin üstünə, ünvanladıq Fransaya. Kimimiz acıdıq, fransızlara həmrəylik nümayiş etdirdik, kimimiz bunu İslamın adına yazdıq, kimimiz tam tərsinə bu olanlara qarşı İslamı müdafiə etdik, kimimiz də dedik ki, bir gün əvvəl Beyrutdakı partlayışda niyə səsin içinə düşmüşdü, ay dünya! Orada ölənlər müsəlman olduğu üçün dilin lal olmuşdu eləmi?! Hər gün müsəlman Şərqində külü göyə sovrulan qardaşlarımızın heyfini, o gün ölən fransızlara acımamaqla çıxdıq. Bu uzun mövzudur və dünyanın ikili standartlarını müzakirə edib nəticə çıxarmaq və ya dünyaya dərs vermək bir qəzet küncünə sığmayacaq qədər çətindir. Həm də, bu sahənin adamlarına daha uyğundur.

İndi ən narahat olmamız gərəkən vəziyyət isə, insan həyatına dəyər verə bilməməmizdir. Biz insanları o qədər meyarlarla bölürük ki, o qədər hissələrə ayırırıq ki, eyni bədbəxtliyə müxtəlif cür münasibət göstəririk. Əslində isə, şüurlu insan bütün ölənlərin bir ad altında birləşdiyini anlamalıdır: "Günahsızlar". Onları müsəlman, xristian, türk, rus kimi qruplara bölüb qiymətləndirmək yanlışdır. Ən azından ona görə ki, azğınlaşmış cəmiyyətdə hərə öz qazancının hayındadı, nə müsəlman müsəlmanın vecinədi, nə xristian xristianın. Yüzlərlə anlamsız idealogiya savaşında hər gün minlərlə insan ölür. Fransada 130 insan həyatını itirib. 130, eləcə də hər gün eşitdiyimiz başqa rəqəmlər bizlər üçün sadəcə saydır.. Bəli, başqa bir şey deyil, yolda nənələrimizdən birini tut, de ki ,Fransada filan qədər adam öldürüblər cavab belə olacaq: "Qara yola öldürsünlər, gor da bu yanda qalsın". Digər bir nənənin cavabı da uzaqbaşı belə olardı : "İraq buralardan". Çünki bu bizə təsir etmir. Nənələr bir yana qalsın, heç biz özümüz də vəziyyəti düzgün qiymətləndirib qavraya bilmirik. Çünki, biz sadəcə eşidirik, hiss etmirik.Axı, orda "dərviş"in partlatdığı Parisdə 130 həyat, 130 arzu, 130 sevgi bitdi... Tək bu deyil, hər yerdə dilindən, dinindən, milliyyətindən asılı olmayaraq bütün insanlar eyni cür ölür və bütün insanların xəyalları eyni cür qalır. Dil, din, irq kimi şeylər insanlara məntiq və təfəkkür üçün lazımdır. Düşünmək, qalib gəlmək üçün, özünü sübut etmək, mənəm demək üçün lazımdır. Hiss etmək və xoşbəxt olmaq üçün bunların heç birinə ehtiyac yoxdur. Bunun üçün insan olmaq və insanı sevmək, insana dəyər vermək kifayətdir. Məşhurlardan biri deyir ki, "əşyalar və ideyalar istifadə olunmaq, insanlar isə sevilmək və hörmət edilmək üçün yaradılıb, dünya bu gün ona görə bədbəxtdir ki, əşyalar və ideyalar sevilir, insanlar isə istifadə edilir"...

**P.s Üzümüzə gələn həftə ölkəmiz də daxil olmaqla dünyanın hər yerində, beynəlxalq tolerantlıq günü ilə bağlı tolerantlıq həftəsi qeyd ediləcək. Hər şeyə rəğmən dünyanı xoşbəxt, insan həyatına dəyər verən və tolerant görə biləcəyimiz ümidi ilə yazımı sonlandırıram...**



Hacı BƏKİROĞLU
*hacihaciyev@hotmail.com*

## *FRANSA OLAYLARI VƏ İSLAM*

**Əgər xatırlayırsınızsa keçən sayımızdakı yazım da terror mövzusunda idi. Doğrusu niyyətimdə başqa mövzuya dair yazmaq vardı, ancaq 13 noyabr tarixində Fransada olan hadisə məni yenə bu mövzuya qayıtmağa məcbur etdi.**

Keçən yazıda da İslamın terrora və günahsız insanların qətlinə münasibətindən danışdıq. Bir daha vurğulayaq ki, İslam xoşgörüş dinidir, insanı ən qiymətli varlıq olaraq qəbul edir, günahsız insanlara qarşı edilən təcavüz və hücumları böyük günahlardan sayır.

Qurani Kərim bunu bu cür bəyan edir:

"Kim bir başqa canı öldürmək və ya yer üzündə qarışıqlıq çıxarmaq kimi bir cinayət törətsə (haqsız yerə bir cana qıysa), bütün insanlığı öldürmüş kimi olar. Kim bir canın qurtuluşuna vəsilə olsa, bütün insanlığı canlandırmış kimi olar. Bizim peyğəmbərlərimiz, onlara çox açıq dəlillər gətirdilər. Ancaq bütün bunlardan sonra insanlardan çoxu yenə yer üzündə həddindən artıq irəli getmiş və zülm etmişlər." (Maidə, 32).

İslam barış deməkdir. Bu da göstərməkdədir ki, bədən və ağlın gerçək barışı, ancaq Allaha itaət və təslimiyyətlə mümkün olar. Bir müsəlman da ancaq cəmiyyət içində uyğunlaşma və barış içində yaşasa mükəmməl bir müsəlman olar. Allaha itaət və qulluq içindəki bir həyat, ürək hüzurunu meydana gətirər və cəmiyyət həyatında gerçək barışı təmin edər.

İslam nə fərdlərə və nə də cəmiyyətə laqeyd yanaşmamışdır. Əksinə hər ikisi arasında tam bir uyğunlaşma və tarazlığı hədəfləmişdir. İslamın mesajı bütün insanlıq üçündür. Fatihə surəsində də buyurulduğu kimi Allah, bütün aləmlərin Rəbbidir. Hz. Peyğəmbər də bütün insanlığa göndərilmiş bir peyğəmbərdir. "Ey insanlar! Mən yalnız Allahın bütün insanlığa göndərdiyi bir peyğəmbərəm" (Araf: 158).

İslamda, bütün insanlar, rəng, dil, irq və vətən fərqliliyi güdülmədən bərabər qəbul edilmişlər. Bu gün inkişaf çağı deyilən çağımızda da, insanlar arasında zikr edilən səbəblərlə hələ maneələrin, ayrımçılığın və fərqli rəftarların olduğunu inkar edə bilmərik. İslamiyyət, bütün bu ayrımçılıqları və imtiyazları ortadan qaldırmaqda, hər kəsin Allahın məxluqu olmaq nöqteyi-nəzərindən bərabər olduğunu aləmə car çəkməkdədir. İslamiyyət gerçək mənada beynəlmiləl bir baxışa malikdir və rəngə, qəbiləyə, irqə, qana və bölgüyə söykənən imtiyazları şiddətlə rədd edir. İnsanlığa qarşı edilən hər hücumu qınayır, günahsız insanları hədəf alan bütün təcavüzlərdən ötəri kədərləndiyini ifadə etməkdədir. Zalımların yanında məzlumların öldürüldüyü kütləvi qırğınları İslamiyyət şiddətlə qadağan edilir. İslama görə, heç bir kimsə başqasının səhvi səbəbiylə məsul tutula bilməz.

İslamiyyət günahsız və qorumasız insanların öldürülməsinə əsla icazə verməz. Əgər, bu cür qırğınlar, tərəfli mətbuatın və xəbər qaynaqlarının iddia etdikləri kimi, bəzi müsəlman fərdlərdən olsa, İslam adına və din adına bu zalım insanları suçlu və günahkar elan edərik. Zülm edənlərin din, irq və cinsiyyət fərqi güdülmədən mütləq bir cəza ilə cəzalandırılması lazım olduğunu da mütləq şəkildə ifadə etmək istəyirik.

Ancaq nə yazıq ki, bir qrup İslamdan xəbərsiz özünü bilməzlər ortaya düşüb İslam adına hərəkət edir, bütün pislikləri İslam adı altında səhnələşdirirlər. İslamdan bildikləri isə ancaq tək ALLAHU ƏKBƏR sözüdür.

Qayıdaq Fransa hadisəsinə. Bu hadisəyə şok olan Avropa ölkələri Fələstin, İraq, Suriya və eləcə də başqa İslam ölkələri qan gölünə dönəndə niyə yan tərəfə baxırdılar? Minlərlə günahsız, sıravi insanlar qətl ediləndə şok keçirmirdilər?

Mən demirəm kimsə bu hadisəyə üzülməsin. Mən də bir müsəlman olaraq məsum insanların həlakına üzülürəm və hamı kimi ölənlərin ailələrinə Allahdan səbr diləyirəm. Ancaq mənə maraqlı odur ki, saydığım İslam dövlətlərində qırğınlar törədiləndə heç kəs günahkar axtarmır, əksinə İsrail özünü qorudu, müdafiə etdi kimi ikiüzlü bəyanatlar verməklə kifayətlənir. Ancaq Avropaya gələndə bütünlükdə İslam dini terrorçu kimi təqdim olunur.

Və Fransa bayrağına bürünən soydaşlarımız, dindaşlarımız indi də üzümü sizlərə çevirib sual verirəm, islam ölkələrində qətllər törədiləndə hardaydınız? Yoxsa o ölkələrin bayrağını tapa bilmədiniz?

**Nəticə olaraq onu demək istəyirəm ki, Fransa eləcə də bütün Avropa ölkələri bir çevrilib geriyə, yəni keçmiş tarixə baxsalar bu gün başlarına gələnlərin səbəbini anlayarlar. Və müsəlmanları terrorçu adlandırmaqdan utanc hissi duyarlar. Əgər onlarda utanacaq üz varsa...**

## GÜRCÜSTANDA 100000 ŞƏHİDİN ANIM GÜNÜ QEYD EDİLİB

Gürcüstan Pravoslav kilsəsi noyabrın 13-də 100 min gürcü şəhidinin anım gününü qeyd edib.

Tbilisidə Metex körpüsü yaxınlığında bütün Gürcüstanın Katolikos-Patriarxı II İlyanın başçılığı ilə təntənəli liturgiya ayini və yürüş keçirilmişdir. Adamlar xaç, ikona, şam və bayraqlarla yürüşə çıxmışlar. Rəvayətə görə, farslar məhz bu körpünün qarşısında 1227-ci ildə qarət etdikləri xristian məbədlərindən gətirdikləri pravoslavlara məxsus müqəddəs əşyaları tapdalamaqdan imtina etdikləri üçün Tbilisinin 100 min xristian sakinini öldürmüşdülər.

## TBİLİSİDƏ BEYNƏLXALQ QAFQAZ MEDİA FORUMU KEÇİRİLİB

Tbilisidə noyabrın 13-də "Dünyanın sarsıntılar dönəmində kim duruş gətirəcək?" mövzusunda Beynəlxalq Qafqaz Media Forumu keçirilib.

İki gün ərzində Azərbaycan, Ermənistan, Gürcüstan və Rusiyadan olan aparıcı KİV rəhbərləri, media sahəsində ekspertlər və gənc jurnalistlər diskussiya, dəyirmi masa və treninqlər çərçivəsində beynəlxalq həyatın əsas məsələlərini, habelə beynəlxalq və regional böhranların Cənubi Qafqazın media mühitinə təsiri məsələlərini müzakirə ediblər.

"Sever-Yuq" Siyasi Mərkəzinin direktoru Yuliya Yakuşeva çıxışında forumun üçüncü dəfə keçirildiyini qeyd edib. Tədbirdə "Danışır Moskva" radiostansiyasının direktoru Vladimir Mamontov "Hökmranlıq əsrinin sonu" adlı məruzə ilə çıxış edib. Məruzə ilə bağlı forum iştirakçılarının sualları cavablandırılıb.

Xatırladaq ki, "Ambassador" mehmanxanasının konferens-zalında Cənubi Qafqaz dövlətlərinin KİV redaktorları və jurnalistlərin iştirakı ilə keçirilən tədbirin təşkilatçısı "Qruziya i mir" qəzetinin redaksiyasıdır.

## GÜRCÜSTANDA ÜMUMİ SIĞORTANI GENİŞLƏNDİRMƏK NƏZƏRDƏ TUTULUR

Əmək, səhiyyə və sosial müdafiə naziri David Serqeyenko məlumat verib ki, ümumi dövlət səhiyyə proqramı 2013-cü il iyulun 1-dək xüsusi sığortadan istifadə etmiş şəxslərə də aid ediləcək.



Nazirlik dövlət tibbi sığorta proqramına 2013-cü ilin 28 fevralından başlayıb. Iyulun 1-dən o, ümumi xarakter alıb.

"Bu günə kimi 2013-cü ilin 1 iyulunadək korporativ sığortası olanlara ümumi sığorta aid edilməyib. Sonra korporativ sığortalarını itirmiş şəxslər yalnız təxirəsalınmaz vəziyyətlərin idarə olunması və ailə həkimi kimi minimal paket alıblar" – Serqeyenko bəyan edib.

Nazirlik yeniliyi ölkədə sığorta məlumat bazasını tam dəqiqləşdirdikdən və təkmilləşdirdikdən sonra tətbiq edə bilər.

Ümumi səhiyyə proqramında Gürcüstan vətəndaşı olan 6 yaşdan 60 yaşadək qadınlar, 65 yaşadak kişilər iştirak edə bilərlər. ümumi sığorta əldə etmək üçün istənilən dövlət tibb müəssisəsində qeydiyyatdan keçmək lazımdır.

Dövlət proqramı ailə həkimi, laborator tədqiqatları və digər xidmətləri nəzərdə tutur. Dövlət geniş planlı əməliyyatların 70%-ini (illik 9 min dollara yaxın), onkoloji müalicənin 80%-ini (7,3 min dollara yaxın) maliyyələşdirir.

Layihə həmçinin hamiləliyi və fizioloji doğumu (təxminən 300 dollar), qeysər kəsiyi əməliyyatını (təxminən 490 dollar) təmin edir.

## İSLAM XİLAFƏTİ GÜRCÜSTANI DA HƏDƏF ALDI

İslam xilafəti Qafqazda Gürcüstan vilayəti də təsis etdi. Bu məlumatı hərbi ekspertlər yayaraq, bəyan ediblər ki, yaxın günlərdə Gürcüstandan İŞİD-ə qoşulan cihadçıların iştirakı ilə video görüntülər də yayılacaq, habelə vilayət rəhbərinin adı da bəlli olacaq.

Onların sözlərinə görə, vilayətin əsas məqsədi Şimali Qafqazla əlaqəni təmin etməkdir, bunun üçün artıq elektron şəbəkə yaradılıb. "Rezonansi" qəzetinə istinadən "İnterpress" yazır ki, onlar bunu ən qəddar təşkilatın Gürcüstana daxil olması hesab edirlər və mümkün terror aktlarından danışırlar.

Keçən yay Rusiyada qadağan olunan "İslam dövləti" terror təşkilatı bəyan etmişdir ki, Şimali Qafqazda Dağıstanı, Çeçenistanı, İnquşetiyanı, Kabarda-Balkariya və Qaraçayı əhatə edən "vilayət" yaradılıb. Iyunda təşkilat Şimali Qafqazın əsas qruplaşması olan "İmarat Qafqaz"ın əksəriyyət döyüşçülərinin öz sıralarına keçməsi barədə bəyanat yaymışdı. Vilayətin idarəedicisi "İmarat"ın Dağıstan qanadının keçmiş komandiri 34 yaşlı Əbu Muhammad əl-Kadari (Rüstəm Aselderov) təyin edildi. O, "İD"-ə keçən ilin dekabrında daxil olub və bu da onun "İD"-nin düşməni "Əl-Qaida"nı dəstəkləyən "İmarat"dan uzaqlaşdırılmasına səbəb olub. Son vaxtlar "İmarat" Şimali Qafqazda demək olar ki, darmadağın edilib, sağ qalan başçıların əksəriyyəti, döyüşçülərin 80%-i "İD"-ə tərəfdardırlar. Lakin xilafət Şimali Qafqazla kifayətlənməyərək, Gürcüstanda yeni vilayət yaratmağı qərara alıb.

Bu məlumatı hərbi ekspert Vaxtanq Maisaya təsdiqləyir və vilayətin artıq mövcud olduğunu söyləyir. Rəhbərlərin adı Vaxtanq Maisayaya məlum olmasa da, onun sözlərinə görə, tezliklə bu bəlli olacaq. Maisaya bildirib ki, Gürcüstan vilayəti üçün xüsusi xidmət, habelə elektron rabitə şəbəkəsi də yaradılıb.

"Tezliklə 10 dəqiqəlik klip çıxacaq, orada Gürcüstandan getmiş cihadçılar iştirak edəcək və güman ki, onda vilayət rəhbərinin adı da bəlli olacaq. Göründüyü kimi vilayətin əsas məqsədi "İD"-nin böyük maraq göstərdiyi Şimali Qafqazla tranzit rabitənin təmin edilməsidir", – Maisaya bildirib.

Onun sözlərinə görə, xilafət Gürcüstanda çox güman ki, Kvemo Kartli, Pankisi və Acaranı əhatə edən struktur şəbəkəsi yaradır. Maisaya xilafətin mərkəzinin Tbilisi ola biləcəyi ehtimalını da söyləyib. "Əgər struktur yaradılmasa idi, onlar belə anons verməzdilər" – deyə o, fikrini tamamlayıb.

# TƏHSİLSİZLİYİN HƏYATIMIZDA BURAXDIĞI İZLƏR VƏ YA TƏHSİLİN ÖNƏMİ

*Bu mövzu sizə dəfələrlə başqa müəlliflər tərəfindən çatdırılmış ola bilər. Mən onların fikirlərini təqib etməyə, ya da onların yazılarını təkrarlamağa çalışmıram. Sadəcə bu mövzuya mənim də müəyyən əlavələrim var. Başlanğıc nə dərəcədə sizi cəlb etdi, bilmirəm, heç məqsədim bu da deyil. Demək istədiyim odur ki, təhsil dövrümüzün ən lazımlı sistemidir. Düşünürəm ki, təhsil insanlara sadəcə iş sahibi olmaq, daha çox pul qazana bilmək kimi məsələlərdə yox, həm də onlara geniş dünyagörüşünə sahib olmaqda köməkçidir, yardımçıdır.*

Müasir elm XVl-XVll əsrlərdən formalaşmağa başlayıb. Əvvəllər elmlə məşğul şəxslər saray əyanları kimi xüsusi rütbəyə malik olsalar da, sonradan onlara verilən elmi dərəcələrlə cəmiyyətdə elitar bu təbəqə kimi tanınmağa başladılar. Təhsilin yüksəlişi nə dərəcədədirsə, cəmiyyətin inkişafı da buna uyğun baş verir. Təhsilin bu qədər yüksək qiymətlə dəyərləndirildiyi bir dünyada təssüflər olsun ki, təhsili 6 hərfdən ibarət sözdən başqa dəyərləndirə bilməyən insanlar da var. Əgər bir insan imkansız yaşayırsa, çox kasıbçılıq çəkirsə, mənə elə gəlir ki, günah onun özündədir. Hər bir insan gələcəkdə necə yaşamağını fikirləşməlidir. Bunun üçün təhsil önəmli faktorlardan biridir.

Yaşım az olsa da, bir çox məqam mənim də nəzərimdən qaçmır. Məsələn, günümüzün problemlərindən biri çox çətinliklə işləyib, çox çətinliklə də qazanan bir çox insanın əllərində olan sərvəti daşa-kəsəyə verərək, böyük bir villa ucaltmaq arzusunda olmalarıdır. Bəli, razıyam hər kəs istəyər rahat, komfortlu, hər cür şəraiti olan bir evdə yaşasın. Təbii ki, imkanın buna yol verirsə, bunu etməlisən. Şahidi olmuşam ki, böyük evlərə xərclədikləri məbləğin kiçik bir qismini övladlarının təhsilinə qıymayan insanlarımız da var. Bu insanlarımız belə bir düşüncəyə sahibdirlər ki, gələcəkdə övladım yaxşı evdə yaşasın, çətinlik çəkməsin, evləndirim, maşın alım və yaxud cehiz verim, yaxşı toy edim, gəlin qulluğu görüm. Böyük toy edirlər – amandır qonşunun süfrəsində bu var idi, mənimki geridə qalmasın, gəlinə adımıza yaraşan bahalı toy donu lazımdır, borc-xərc qır-qızıl da almalıyıq. Bəlkə deyəcəksiniz, bu uşaq yaşına görə böyük danışır, amma bir az düşünsəniz fikirlərimə haqq verəcəyinizə əminəm.

Valideynlərimiz gözümüzü açandan necə deyərlər, beynimizə yeridiblər ki, böyüyə hörmət et, böyüyün qarşısında söz demə. Bəli, bununla da razıyam. Amma belə bir sual ortaya çıxır ki, bu gün 17 yaşında ailə qurmuş iki gənc, sabah böyüyüb, kimsə məsləhət verəmk istəyəcək. Bu təhsilsiz, iki cahil insanın məsləhəti nə dərəcədə düzgün olacaq? Özlərindən kiçik təhsilli gəncin onların məsləhətinə ehtiyacı olacaqmı? Bax, üstündə düşünməli məqamlardan biri də budur. Hərdən böyüklərimizdən eşidirik ki, qız uşağı təhsil almamalıdır. Zorla təhsildən kənarlaşdırılmış qızların adından qışqırıb demək istəyirəm ki, bağışlayın böyüklərim, mən belə sözlərin qarşısında susmayacam. Təhsil hər kəs üçün işıqlı yoldur, qaranlıq qapıların açarıdır, o cümlədən də, bu, qızlar üçün keçərlidir.

Anaxanım VÜQAR

# GÜRCÜSTANDA MƏCBURİ HƏRBİ XİDMƏT LƏĞV OLUNACAQ

Gürcüstan prlamentinin hüquq komitəsi Zurab Çaparidzenin ümumi məcburi hərbi xidmətin ləğv olunması haqqında təşəbbüsünü dəstəkləyib.

2016-cı ilin yanvarın 1-dən qüvvəyə minəcək qanun layihəsi dövlətin məcburi hərbi xidmətə, peşəkar hərbi xidmətin və Gürcüstanın müdafiə qabiliyyətinin inkişafına xərclədiyi vəsaitin yenidən bölüşdürülməsi məqsədi daşıyır.



Düzəlişlərə əsasən hərbi xidmət kontrakt, ehtiyat, kadr hissələrinə bölünəcək. Bununla belə müvafiq tələbləri yerinə yetirə bilən bütün arzulayanlar müqavilə əsasında hərbi xidmətə qəbul oluna bilərlər.

Kontraktantlar xüsusi imtahan verdikdən sonra həqiqi hərbi xidmətçi ola bilərlər.

Ehtiyat xidmət məcburi olmayacaq.

Qanun layihəsində bildirilir ki, hərbi əməliyyatlar olacağı təqdirdə bütün Gürcüstan vətəndaşları öz hərbi borclarını yerinə yetirməlidirlər. Bundan əlavə Gürcüstan baş nazirinin icazəsi ilə hərbi xidmətə əcnəbi vətəndaşların da qəbul olunması təklif edilir ki, onlar hərbi and içməyəcək, lakin yazılı şəkildə öz üzərlərinə Gürcüstana sədaqət və ölkə qanunlarına riaiyyət etmək öhdəliyi götürəcəklər.

# GÜRCÜSTAN SƏRHƏDLƏRİNDƏ TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİ GÜCLƏNDİRİLİB

Dövət təhlükəsizlik xidməti administrasiyası başçısının müavini Nino Qiorqobiani bəyan edib ki, Parisdə törədilmiş terror aktlarından sonra Gürcüstanda bütün təhlükəsizlik tədbirləri görülüb.

"Parisdə törədilmiş terror aktlarından sonra Gürcüstanda, o cümlədən də sərhədlərdə və




aeroportlarda bütün təhlükəsizlik tədbirləri gücləndirilib. Həmçinin bütün strateji obyektlərdə nəzarət gücləndirilib", – Qiorqobiani bildirib.

Xatırladaq ki, noyabrın 13-də Fransa paytaxtında silsilə terror aktları həyata keçirilmişdir. Fransa və Almaniya futbol yığmalarının qarşılaşdığı "Stad de Frans" yaxınlığında üç, Volter bulvarında isə bir terrorçu özünü partlatmışdır. "Bataklan" konsert salonunda isə terror aktını üç terrorçu həyata keçirmişdir.

Son məlumatlara görə, ən azı 129 nəfər Parisdəki terror hücumlarının qurbanı olmuş, 352 nəfər zərər görmüşdür. "İslam dövləti" terror təşkilatı törədilmiş terror aktlarına görə məsuliyyəti öz üzərinə götürüb.

Anar RAFİQOĞLU
anar.rafiqoglu@gmail.com



# YAD PLANETLİLƏR – MÜƏMMALAR VƏ SİRLƏR

**Dəyərli oxucular, bu dəfəki yazımda mənim üçün olduqca maraqlı və sirlərlə dolu olan yadplanetlilər mövzusuna toxunacam. Sözügedən mövzuda saysız filmlər, kitablar və elmi araşdırmalar mövcuddur. Ancaq yenə də insanlar ortaq bir fikir üzərində birləşə bilmirlər. Bəzilərinə görə onlar dünyanı hərdən ziyarət edir, bir başqalarına görə ümumiyyətlə yadplanetlilər deyə bir şey yoxdu, kimilərinə görə isə onlar artıq aramızdadırlar. Onlar gerçəkdən dünyanı ziyarət edirlərmi? Hər nə qədər bununla bağlı tam dəqiq məlumat olmasa da, əksər insanlar və alimlər yadplanetlilərin dünyanı ziyarət etmələri, onların yer sakinləri ilə bu və ya digər dərəcədə təmas sağlamaları fikrinə inanırlar. Yadplanetlilərlə bağlı bir çox şəkillər, videolar olsa da, həmin görüntülərin gerçəkmi, yoxsa montajdanmı ibarət olduğunu anlamaq çox müşkül məsələdir.**

Bəs onlar dünyanın hansı bölgəsini ziyarət edirlər? Bu sualla bağlı bir-birini inkar edən, bir-biri ilə ziddiyyət təşkil edən neçə-neçə iddialar, nəzəriyyələr mövcuddur. Bunlardan ən çox bilinəni və dünya gündəmində olanı ABŞ ərazisində yerləşən "Area 51" yəni "51-ci Bölgə"dir. "51-ci Bölgə" yazımın başlığında qeyd olunduğu kimi, müəmmalar və sirlərlə doludur. Bu bölgənin, hər nə qədər hərbi texnologiya sahəsində araşdırma və inkişaf məqsədi ilə qurulduğu açıqlansa da, bu əksər insanlara inandırıcı gəlmir. Amerikada hər 10 nəfərdən 7-si "51-ci Bölgə"də UNO-ların olduğuna inanırlar. Prezident Barak Obamanın belə sadəcə özəl izinlə girə bildiyi bu bölgədə gerçəkdən nələr olub-bitdiyindən heç kəsin xəbəri yoxdur. Ancaq "51-ci Bölgə" ilə bağlı ən məhşur nəzəriyyə, burada yadplanetlilərlə ünsiyyət qurulması fikridir. Hətta ötən il amerikalı alim Boyd Bushman, "51-ci Bölgə"dən gizlicə ələ keçirilən və yadplanetlilərə aid olunduğu iddia edilən görüntülər paylaşıb. Bölgədə vaxtilə mühəndis olaraq çalışan Bushman, orada yadplanetlilər üzərində çox ciddi araşdırmalar aparıldığını vurğulayıb. O, "51-ci Bölgə" mərkəzində saxlanılan yadplanetlilərin iki növ olduğunu deyib. Uzun barmaqlara və pərdəli ayaqlara sahib olanların "Quintumnia" adlı bir planetdən dünyaya gəldiklərini bildirib. Bushman, yadplanetlilərin iki qrupa bölünməsinin səbəblərini də açıqlayıb. O, bildirib ki, 1-ci qrupa daxil olan yadplanetlilər insana bənzərdirlər, 2-ci qrupa aid edilənlərin isə insanla heç bir oxşarlığı yoxdur və bəşəriyyətə qarşı düşmən münasibət sərgiləyirlər. Ancaq bütün bunlara baxmayaraq, "51-ci Bölgə"dən Bushmanın bu iddialarına qarşı indiyədək heç bir rəsmi cavab açıqlaması gəlməyib.

Yadplanetlilərlə bağlı ən həyəcanverici açıqlamanı isə bir neçə ay əvvəl, Milli Aviasiya və Kosmik Tədqiqatlar Agentliyinin (NASA) ekspertləri veriblər. Onlar bildirib ki, Yerdən kənarda həyatın tapılmasına ən uzağı 20 il qalıb. İddialara görə, yadplanetli canlılar Günəş sistemindən kənarda aşkarlanacaqlar. Alimlər qeyd ediblər ki, hər bir ulduz sisteminin həyatın mövcud olduğu ən azı bir planeti var. Məsələn, elmi dairələrdə bizim qalaktikada trilyona yaxın planetin varlığı barədə fikirlər dolaşmaqdadır. Görüləcək işin belə nəhəng həcminə baxmayaraq, NASA alimləri əmindirlər ki, 20 il sonra yadplanetlilərlə əlaqə qurmaq mümkün olacaqdır. Əlbəttə ki, bütün bunlar hələ fərziyyələrdən başqa bir şey də deyil.

**Şəxsən mənim düşüncəmə görə də, kainat sadəcə bizlərdən ibarət ola bilməz. Bu, böyük bir binanın sadəcə bir mənzilində, yalnız bir ailənin yaşaması və digər bütün mənzillərin boş olması kimi bir şeydi. Son olaraq yazımı məhşur yazıçı Artur Klarkın düşündürücü bir sözü ilə tamamlamaq istəyirəm: "İki ehtimal var. Ya kainatda yalnızıq, ya da deyilik. İkisi də eyni dərəcədə qorxuncdur".**

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

Yeni YOL

15 noyabr 2015-ci il
№0011 (11)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## GÜRCÜSTAN VƏ AZƏRBAYCAN KİNEMATOQRAFÇILARI “ROBİNZON KRUZO” MÖVZUSUNDA FİLM ÇƏKİBLƏR



Noyabrda ingilis yazıçısı Daniel Defonun məşhur “Robinzon Kruzo” romanının yeni versiyası böyük ekrana çıxacaq. “Robinzon və doqquz Cümə” adlı filmi Azərbaycan və Gürcüstan kinematoqrafçıları təqdim edəcəklər.

Gürcü rejissoru Qeorqi Kikaleşvilinin komediya janrında çəkdiyi lentdə kino, teatr və estradanın Vaxtanq Kikabidze, Kaxi Kavsadze, Keti Topuriya, Dato Xucadze, Açiko Meparidze kimi ulduzları rol alıb.

Filmin süjetinə görə, Robinzon Gürcüstan paytaxtında adi italyan həyətlərindən birində yaşayır. Şən sakinlərlə qonşu olmasına baxmayaraq, onun həyatı darıxdırıcı və yeknəsəqdir. Bir dəfə o, qəribə yuxu görür, mələk yuxusunda ona xoşbəxtlik açarı verir. Robinzon taleyin hökmü ilə adam yaşamayan adaya düşür, orada onun əsas macəraları başlayır.

“Robinzon və doqquz Cümə”nin ssenari müəllifi Nikoloz Ramişvilidir. Filmdə gürcü-Azərbaycan dostluğu, qonşuluğu və sevgisi diqqət mərkəzində saxlanılır. Filmin çəkilişləri hər iki ölkədə həyata keçirilib.

“Robinzon və doqquz Cümə” filminin premyerasının 2015-ci ilin noyabrın sonlarında Gürcüstan, Azərbaycan, Belarus və Qazaxıstanda baş tutacağı gözlənilir.

## GÜRCÜSTANIN İNTELLEKTUALLAR KOMANDASI DÜNYANIN 12 GÜCLÜ KOMANDASINDAN BİRİ OLUB

Tbilisidə “Nə? Harada? Nə zaman?” intelektual oyunları üzrə XIII dünya çempionatı başa çatıb. Noyabrın 13-də 24 ölkədən 59 komandanın iştirak etdiyi seçmə mərhələ keçirilib. Noyabrın 14-də isə dünya çempionu titulu uğrunda final yarışlarında Rusiya, Azərbaycan, Belarus, Böyük Britaniya, Gürcüstan, İsrail, Latviya, ABŞ, Özbəkistan, Ukrayna və Finlandiyadan 18 komanda mübarizə aparıb. İlk üç yeri Rusiya Federasiyasının nümayəndələri tutublar.

“Nə? Harada? Nə zaman?” intellektual oyunlarının 2015-ci il çempionu Sergey Nikolenkonun komandası olub. İkinci yeri Aleksey Boqoslavskinin, üçüncü yeri isə Mixail Savçenkovun komandası tutub. Sevindirici haldır ki, ölkəmizin təmsil edən David Rapavanın və




Azərbaycan təmsilçisi Balaş Qasımovun komandaları dünyanın ən güclü 12 komandası arasına düşə bilib.

## TBİLİSİDƏ HEYVANLAR ÜÇÜN QƏBİRSTANLIQ AÇILIB

Tbilisinin İsani-Samqori rayonundakı “Veli” məzarlığının ərazisində heyvanların basdırılması üçün 1 hektara yaxın sahə ayrılıb.

Bu barədə paytaxt meriyasının yaratdığı “Hermes” mərasim xidmətinin direktoru Mixail Caqaniya məlumat verib.

“İndiki mərhələdə ərazinin qaydaya salınması nəzərdə tutulmur. Daha doğrusu hansı heyvanın harada basdırılmasını müəyyənləşdirmək mümkün olmayacaq”, – Caqaniya deyib.

O, qeyd edib ki, Avropa ölkələrində heyvanlar üçün məzar daşı qoyma praktikası var, lakin hələ məlum deyil Gürcüstanda buna ehtiyac varmı.

“Əgər sahibləri öz heyvanlarına yazılı və şəkilli abidə qoymaq istəsələr, biz bu məsələyə baxacağıq. Əgər şəhər rəhbərliyi bunun gərəkli olmasını nəzərə alsa, qəbirstanlığın bu cür təşkil edilməsi mümkündür”, – Caqaniya bildirib.

Ölmüş heyvanların basdırılması 60 kiloqramadək 50 lari, 60 kiloqramdan 150 kiloqramadək 80 lari, 150 kiloqramdan 300 kiloqramadək 230 lari təşkil edir.

Caqaniyanın sözlərinə görə, bu qəbirstanlıqda sahibsiz heyvanların basdırılması da mükün olacaq.



# YENİ NƏŞRLƏR

## NƏRİMAN ƏBDÜLRƏHMANLININ “DÖNƏLGƏ” ADLI KİTABI ÇAP OLUNUB




Həmyerlimiz, tanınmış yazıçı Nəriman Əbdülrəhmanlının “Dönəlgə” adlı yeni kitabı 2015-ci ildə Bakıda “Qanun” nəşriyyatında çap olunub.

"Dönəlgə" adlanan kitabda yazıçının müxtəlif illərdə qələmə aldığı seçmə hekayələri, “Göy adamı” povesti və “Dönəlgə” adlı kiçikhəcmli romanı toplanaraq, oxuculara təqdim olunub.

Qeyd edək ki, müəllifin əsərləri orijinal mövzu seçimi, üslub müxtəlifliyi və dil zənginliyi baxımından diqqəti çəkir.

Nəfis şəkildə tərtib olunmuş kitabın redaktoru isə həmyerlimiz şair Nurafizdir.

## GÜRCÜ DİLİNDƏ “ÇAĞDAŞ AZƏRBAYCAN POEZİYASI” ADLI ANTOLOGİYA İŞIQ ÜZÜ GÖRÜB




Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə “Türk Dünyası İnfo” İctimai Birliyinin həyata keçirdiyi “Azərbaycan-Gürcüstan ədəbi-mədəni əlaqələrinin inkişafına dəstək” adlı layihə çərçivəsində gürcü dilində “Çağdaş Azərbaycan poeziyası” adlı antologiya çapdan çıxıb.

“QHT Nəşriyyatı”nda 350 tirajla nəşr olunan kitabda ədəbi ictimaiyyətin yaxşı tanıdığı, müxtəlif ədəbi nəsilləri təmsil edən 22 Azərbaycan şairinin əsərlərindən ibarət nümunələr yer alıb.

Nəşrin məsləhətçisi professor Nizami Cəfərov, layihənin rəhbəri şair-publisist Dəyanət Osmanlıdır. Şeirləri gürcü dilinə Neli Məmmədova, Zezva Medulaşvili, İmir Məmmədli, Oktay Kazımov, Anna Bartkulaşvili və Niha Zorzaneli tərcümə ediblər.

“Türk Dünyası İnfo” İctimai Birliyinin sədri Dəyanət Osmanlı AZƏRTAC-a bildirib ki, bu layihənin məqsədi müasir Azərbaycan şairlərinin xaricdə tanıdılması, Azərbaycan-Gürcüstan ədəbi-mədəni əlaqələrinin inkişafına kömək etməkdir. Çağdaş Azərbaycan poeziyasının gürcü dilində antologiya halında çıxması ilk təşəbbüsdür və ədəbiyyatımızın qonşu və dost ölkə olan Gürcüstanın ictimai, elmi, ədəbi mühitində təbliğinə yönəlib. Kitabın Gürcüstanda fəaliyyət göstərən kitabxanalara, mədəniyyət mərkəzlərinə və digər uyğun ictimai qurumlara hədiyyə olaraq paylanılması nəzərdə tutulur. “Çağdaş Azərbaycan poeziyası” antologiyasının təqdimat mərasiminin Gürcüstan azərbaycanlılarının Tbilisidəki “Varlıq” Mədəniyyət Mərkəzinin ofisində keçirilməsi də planlaşdırılıb.

Təsisçi:
*“Gürcüstan gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”*

*Redaktor:*
**Afiq Muxtaroğlu**
*Yayım Direktoru:*
**Hacı Bəkiroğlu**

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmır.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.